**Azərbaycan Respublikası adından**

**Q Ə T N A M Ə**

**İş № 2-1(103)-335/2010**

**03 avqust 2010-cu il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin İnzibati - İqtisadi Kollegiyası

Hakimlər: Səriyyə Seyid qızı Seyidovanın sədrliyi ilə (məruzəçi),
Sərvət Qeybəli oğlu Hüseynov və Mirzəli Əbdüləli oğlu Abbasovdan ibarət tərkibdə,
Məhkəmə iclas katibi Vüsalə Dadaş qızı Abdulrəsulova
**İddiaçı: "Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC**, onun nümayəndəsi İbadov Zaur Fəzail oğlu, Vəliyev Habil Allahverdi oğlu iştirak edir,
**Cavabdeh: Azərbaycan Mətbuat Şurası İctimai Birliyi**, onun nümayəndəsi Əliyev Şəmsəddin Mənsur oğlu iştirak edir.

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin (hakim: T.Ə.Əsədova) 2-(81)-580/2010 saylı, 02 aprel 2010-cu il tarixli qətnaməsindən iddiaçı "Gündəlik Bakı" ictimai-siyasi qəzetin ("Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC) verdiyi apellyasiya şikayətinə **03.08.2010-cu il** tarixdə Bakı şəhəri, Z.Xəlilov küçəsi, 540-cı məhəllə, Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq,

***MÜƏYYƏN ETDİ:***

İddiaçı "Gündəlik Bakı" gündəlik ictimai siyasi qəzeti cavabdeh "Mətbuat Şurası" İctimai Birliyinə qarşı iddia ərizəsi ilə 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinə müraciət edərək, Azərbaycan Mətbuat Şurasınan Şikayətlər üzrə Komissiyasının 30 dekabr 2009-cu il tarixli rəyi və Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin 30 dekabr 2009-cu il tarixli qərarının "Gündəlik Bakı" qəzetinin "Reket" elan edilməsi və adının Mətbuat Şurasının qara siyahısına salınmasına dair hissəsinin ləğv edilməsinə, həmin qərarla bağlı "Gündəlik Bakı" ictimai siyasi qəzetin kollektivinin şərəf və ləyaqətinin işgüzar nüfuzun ləkələnməsi ilə əlaqədar vurulmuş 50 000 manat maddi və 100 000 manat mənəvi

zərərin Mətbuat Şurasından tutularaq "Gündəlik Bakı" qəzetinə ödənilməsi və "Reket" qəzet adının ləğv edilməsinə dair həmin qərarın KİV-də dərc edilməsinin Azərbaycan Mətbuat Şurasının üzərinə vəzifə kimi qoyulmasına dair qətnamə qəbul edilməsin xahiş etmişdir.

Birinci instansiya məhkəməsində hazırlıq iclası vaxtı əsl olmayan iddiaçı "Gündəlik Bakı" gündəlik ictimai siyasi qəzeti əsl iddiaçı "Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC ilə əvəz olunmuşdur.

İşə mahiyyəti üzrə baxılarkən iddiaçı 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinə vəsatətlə müraciət edərək, hazırki iş üzrə məhkəmə baxışı yekunlaşanadək Mətbuat Şurasına məxsus əmlakın siyahıya alınmaqla üzərinə həbs qoyulmasına və Mətbuat Şurasına Gündəlik Bakı ictimai siyasi qəzeti ilə əlaqədr hər hansı bir hərəkətlərin edilməsinin qadağan olunmasına dair qərardad qəbul edilməsini xahiş etmişdir.

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-580/10 saylı iş üzrə qəbul etdiyi 31.03.2010-cu il tarixli qərardadı ilə ərizənin təmin edilməməsi qərara alınmışdır.

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-580/10 saylı iş üzrə qəbul etdiyi 02.04.2010-cu il tarixli qətnaməsi ilə iddianın rədd edilməsi qət edilmişdir.

Qətnamə ilə razı olmayan iddiaçı "Gündəlik Bakı" ictimai-siyasi qəzet ("Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC) apellyasiya şikayəti verərək, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-580/2010 saylı 02 aprel 2010-cu il tarixli qətnaməsinin ləğv edilməsini və iddia tələbinin təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin 13 may 2010-cu il tarixli qərardadı ilə apellyasiya şikayəti mümkün hesab edilərək, işə baxılması 08 iyun 2010-cu il tarixə təyin edilmiş, məhkəmə iclası sonuncu dəfə 03 avqust 2010-cu il tarixə təxirə salınmış və iş üzrə qətnamə həmin tarixdə elan olunmuşdur.

İddiaçının nümayəndəsi Z.İbadov apellyasiya şikayətində və məhkəmə iclasında verdiyi izahatında apellyasiya şikayətinin dəlillərini müdafiə edərək, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-580/2010 saylı 02 aprel 2010-cu il tarixli qətnaməsinin ləğv edilməsini və iddia tələbinin təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etdi.

İddiaçının digər nümayəndəsi H.Vəliyev də apellyasiya şikayətində və məhkəmə iclasında verdiyi izahatında apellyasiya şikayətinin dəlillərini müdafiə edərək, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2(81)-580/2010 saylı 02 aprel 2010-cu il tarixli qətnaməsinin ləğv edilməsini və iddia tələbinin təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etdi.

Cavabdehin nümayəndəsi Ş.Əliyev məhkəmə iclasında verdiyi izahatında apellyasiya şikayətini qəbul etməyərək, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 02 aprel 2010-cu il tarixli 2-(81)-580/2010 saylı qətnaməsinin dəyişdirilmədən qüvvəsində saxlanılmasını xahiş etdi.

Məruzəçi hakimin məruzəsini, tərəflərin nümayəndələrinin izahatlarını dinləyərək, apellyasiya şikayətinin dəlillərini və iş materiallarını hərtərəfli araşdıraraq, məhkəmə kollegiyası hesab edir ki, 1 saylı Bakı Yerli İqtisad

Məhkəməsinin 2-(81)-580/10 saylı iş üzrə qəbul etdiyi 02 aprel 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmalı, iddiaçı "Gündəlik Bakı" ictimai-siyasi qəzetin ("Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC) verdiyi apellyasiya şikayəti təmin edilməməlidir. Belə ki, iş materiallarından görünür ki, Bakı şəhəri Xətai rayon İcra Hakimiyyəti Başçısı Razim Məmmədov Azərbaycan Mətbuat Şurasına 184 N-li 01.12.2009-cu il tarixli məktubla müraciət edərək H.Vəliyevin təsisçisi olduğu "Gündəlik Bakı" qəzetindən kütləvi informasiya vasitəsi haqqında qanunu kobud surətdə pozaraq qərəzli, öz şəxsi məsələlərinin həlli üçün istifadə etdiyini nəzərə alaraq, səlahiyyət daxilində qanuna müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Həmin məktubdan görünür ki, Xətai rayon İcra Hakimiyyətinə 24.08.2009-cu il tarixdə Vəliyev Rafael Allahverdi oğlu müraciət edərək Əhmədli Bələdiyyəsi tərəfindən 21.06.2007-ci il tarixli 116/1N-li sərəncam ilə ona fərdi yaşayış evi tikintisi üçün ayrılmış torpaq sahəsinin cizgisinin təsdiq olunmasını xahiş etmişdir. Sənədlərin araşdırılması zamanı həmin torpaq sahəsinin dövlət fonduna daxil olan sənaye zonasında yerləşməsi, sənədlərin saxtalaşdırılması müəyyən edilmiş, bu əsaslardan R.A.Vəliyevin xahişinin təmin oluna bilməyəcəyi barədə 07.09.2009-cu il tarixli V-30 N-li məktubla ətraflı cavab verilmiş və onun tərəfindən ödənilmiş 8000 manat vəsaitini geri qaytarılaraq sərəncamın ləğv edilməsi Əhmədli Bələdiyyəsinə tövsiyyə edilmişdir. R.A.Vəliyevin qardaşı "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Allahverdi oğlu Vəliyev Xətai rayon İcra Hakimiyyətində bir neçə dəfə qəbulda olmuş, onun iştirakı ilə əraziyə baxış keçirilmişdir və sonunda o, İcra Hakimiyyətinin qardaşına verdiyi cavabla razılaşmışdır. Sonradan H.Vəliyev telefonla zəng edərək qardaşının xahişinin yerinə yetirilmədiyi təqdirdə təsisçisi olduğu "Gündəlik Bakı" qəzetində müxtəlif məqalələr verəcəyini bildirmiş və sonradan qərəzli, heç bir həqiqətə uyğun olmayan səviyyəsiz məqalələr verməyə başlamışdır.

İş materiallarına əlavə edilmiş qəzet nüsxələrindən görünür ki, qəzetin 24.10.2009-cu il tarixli 195 N-li buraxılışında "İcra başçısının kabinetinə qan düşüb?" adlı ("Xətai rayon İcra Hakimiyyəti başçısının kabinetində daha nə baş verib?" "Məlumata görə 2,5 milyon dollarlıq qalmaqal yumruq davasına səbəb olub" adlı); 31.10.2009-cu il tarixli 200 N-li buraxılışında "Xətai rayonunda yaşıl terror" adlı; 17.11.2009-cu il tarixli 211 N-li buraxılışında "Razim Məmmədov Mehbalı Əliyevin aqibətini yaşaya bilər" adlı; 20.11.2009-cu il tarixli 214 N-li buraxılışında "İcra Başçısı qardaşını döyüb?" adlı; 26.11.2009-cu il tarixli 218 N-li buraxılışında "Razim Məmmədov daxili infarkt keçirib?" adlı məqalələr dərc edilmişdir. Yuxarıda sadalanan məqalələr Xətai rayon İcra Hakimiyyəti tərəfindən R.A.Vəliyevə onun müraciətinin təmin olunmaması barədə cavab məktubu göndərildikdən sonra dərc edilmişdir.

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən "Azərbaycan Respublikasında kütləvi informasiya azaddır. Kütləvi informasiya azadlığı vətəndaşların qanuni informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və

yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır. Kütləvi informasiya vasitələrinin təsis olunması onlara sahiblik, onlardan istifadə, onların idarə olunması, kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri haqqında qanunvericiliyində nəzərdə tutulan hallardan başqa, məhdudlaşdırıla bilməz.”

Həmin qanunun 10-cu maddəsinə əsasən digər hallarla yanaşı mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şaiyələr, yalan və qərəzli yazılar çap etdirmək kütləvi informasiya vasitələrində sui-istifadə kimim qiymətləndirilir və buna yol verilmir.

İş materiallarında olan Azərbaycan Mətbuat Şurasının Nizamnaməsinin 2.1.1-ci bəndinə əsasən Şuranın fəaliyyətinin məqsədinə Azərbaycan mətbuatının keyfiyyətinin və elan olunmuş azadlığının, söz azadlığının jurnalist standartlarına uyğun olaraq qorunması; 2.1.2-ci bəndinə əsasən jurnalistlərin Peşə Davranışı Qaydalarının tələblərinə, mövcud standartlarına uyğun peşə prinsiplərinə əməl etməsinə ictimai nəzarətin həyata keçirilməsi, dövlət orqanları və ictimaiyyətə KİV arasında əlaqənin və etimadın möhkəmləndirilməsi, söz, fikir və məlumat azadlığına daha geniş imkanlar yaradılması; 2.1.3-cü bəndinə əsasən KİV-in fəaliyyət sahələrində baş verən münaqişələrin məhkəməyəqədər həlli variantlarının araşdırılması, mətbuatın davranışı ilə əlaqədar verilmiş şikayətlərin qəbulu, öyrənilməsi və bununla bağlı qərarların çıxarılması; 2.1.9-cu bəndinə əsasən Şuraya daxil olmuş ərizə və şikayətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi və s. tədbirlər daxildir.

Həmin nizamnamənin 4.12.1-ci bəndinə əsasən mətbuatın fəaliyyətinə dair şikayətlərin araşdırılması və Şuranın müzakirəsinə hazırlanması üçün Mətbuat Şurasının daxilində onun İdarə Heyəti üzvlərindən ibarət Şikayətlər üzrə Komissiya yaradılır; 4.12.4-cü bəndinə əsasən Komissiya Şuranın Katibliyinə daxil olan şikayətlərə, ərizələrə baxır, müstəqil olaraq onların yoxlanılmasını və tərəflərin dinlənilməsini təşkil edir, dinləmələr nəticəsində qərar layihəsi hazırlayır və onu Şuranın iclasında müzakirəyə çıxarır.

Məhz buna görə də Azərbaycan Mətbuat Şurası tərəfindən Komissiya təşkil edilmiş, komissiyanın 30.12.2009-cu il tarixli rəyindən görünür ki, Xətai rayon İcra Hakimiyyəti Başçısı Razim Məmmədovun Azərbaycan Mətbuat Şurasına ünvanladığı 184 N-li 01.12.2009-cu il tarixli məktubunun müzakirəsində qəzetin baş redaktoru H.Vəliyev və Xətai rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak etmişlər.

“Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları”nın 2-ci bəndinə əsasən “Gündəlik Bakı” qəzetinin “Reket nəşr” elan edilərək adının Şuranın “qara siyahı”sına salınması üçün Azərbaycan Mətbuat Şurasının İdarə Heyəti qarşısında məsələnin qaldırılması qərara alınmışdır.

Bundan sonra Azərbaycan Mətbuat Şurasının 159 N-li 30.12.2009-cu il tarixli qərarı ilə “Gündəlik Bakı” qəzeti “reket nəşr” elan edilərək adı Şuranın “qara siyahı”sına daxil edilmiş və mediaya və ictimaiyyətə müvafiq məlumatın verilməsi qərara alınmışdır.

İş materiallarında olan Azərbaycan Jurnalistlərinin 23.12.2006-cı ildə keçirilmiş V Qurultayının qətnaməsinin tələbinə müvafiq olaraq hazırlanaraq MŞ İdarə Heyətinin 30 yanvar 2007-ci il tarixli iclasında təsdiqlənmiş "Reket nəşr"lərin müəyyənləşdirilməsinə dair Təlimata əsasən "Reket nəşr" peşə prinsiplərinin pozulmasına yol verən kütləvi informasiya vasitələrinin ictimai qınağa cəlb etmək üçün Şura tərəfindən müəyyənləşdirilən ad kimi tərif verilib. Təlimata əsasən Təlimat mediada peşə prinsiplərinin pozulmasına qarşı ictimai metodlarının effektivliyin artırılmasında, etik dəyərlərə sayğısızlıq hallarının aradan qaldırılmasında ictimai aktivliyin təminatına xidmət edir.

Mətbuat Şurasının Nizamnaməsinin 4.10-cu bəndinə əsasən Mətbuat Şurasının iclaslarında qəbul olunan bütün qərarlar Şuranın müəyyən etdiyi qaydada mətbuat orqanlarına və ictimaiyyətə çatdırılır.

Göründüyü kimi həmin qərarın mediaya və ictimaiyyətə çatdırılması Mətbuat Şurasının Nizamnaməsinə uyğun olaraq həyata keçirilmişdir.

Buna görə də məhkəmə hesab edir ki, iddia tələbi həmin hissədə təmin edilə bilməz.

Bundan başqa iddiaçı həmçinin 30.12.2009-cu il tarixli qərarla bağlı "Gündəlik Bakı" gündəlik ictimai siyasi qəzetin kollektivinin şərəf və ya ləyaqətinin, işgüzar nüfuzunun ləkələnməsi səbəbindən maddi və mənəvi zərərin ödənilməsi tələbini irəli sürmüşdür.

"Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 14 may 1999-cu il 7 N-li Qərarının 3-cü bəndində qeyd edilir ki, "Məhkəmələr şərəf və ləyaqətin müdafiəsi barədə işlərə baxılarkən üç halı aydınlaşdırmalı və onlara məcmu halında hüquqi qiymət verilməlidir; məlumatın vətəndaşların və təşkilatların şərəf və ləyaqətini ləkələməsi; həmin məlumatların doğru olmaması; bu məlumatların yayılması. Məhkəmələrə izah edilsin ki, məlumat əxlaqi prinsiplər, istehsal-təsərrüfat, xidmət və ictimai fəaliyyətlə əlaqədar cəmiyyət, kollektiv və yaxud ayrı-ayrı şəxslər arasında vətəndaş barəsində mənfi rəy yaradırsa o, şərəf və ləyaqəti ləkələyən məlumat hesab edilir. Yol verdiyi nöqsanlara görə vətəndaşın tənqid edilməsi onun şərəf və ləyaqətinin ləkələnməsi kimi qiymətləndirilə bilməz."

Məhkəmə hesab edir ki, cavabdeh iddiaçının şərəf və ləyaqətini ləkələməmiş, buna görə iddia tələbi həmin hissədə də təmin edilə bilməz.

İddiaçı həmçinin iddia ərizəsində göstərmişdir ki, cavabdeh tərəfindən onun işgüzar nüfuzu ləkələnmişdir. Belə ki, iddiaçı bildirir ki, onun "Qasid" ASC ilə münasibətlərinin pozulmasına səbəb Azərbaycan Mətbuat Şurasının "Qasid" ASC-yə yazdığı 01.02.2010-cu il tarixli məktub olmuşdur.

Lakin həmin məktubun məzmunundan görünür ki, Azərbaycan Mətbuat Şurası "Qasid" MMC-yə iddiaçı ilə müqavilənin pozulması barədə göstəriş verməmişdir. Ümumiyyətlə Azərbaycan Mətbuat Şurasının belə göstəriş vermək hüququ olmamışdır. Buna görə də iddiaçı ilə "Qasid" ASC arasında olan müqavilənin pozulmasında Azərbaycan Mətbuat Şurası məsuliyyət daşıya bilməz.

Məhkəmə hesab edir ki, cavabdehin iddiaçının işgüzar nüfuzunu ləkələməsi iş materiallarında öz əksini tapmadığı üçün iddia tələbi həmin hissədə də təmin edilə bilməz.

Göstərilənlərə əsasən işə apellyasiya qaydasında baxan məhkəmə hesab edir ki, 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2-(81)-580/10 saylı iş üzrə qəbul etdiyi 02 aprel 2010-cu il tarixli qətnaməsi qanuni və əsaslı, işin faktiki hallarına uyğun olduğu üçün dəyişdirilmədən saxlanılmalı, iddiaçı "Gündəlik Bakı" ictimai-siyasi qəzetin ("Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC) apellyasiya şikayəti əsassız olduğuna görə təmin edilməməli, apellyasiya şikayəti üzrə ödənilmiş 26 manat məbləğində dövlət rüsumu iddiaçının özünə aid edilməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384.0.1, 393 və 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**Q Ə T   E T D İ :**

1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 2-(81)-580/10 saylı iş üzrə qəbul etdiyi 02 aprel 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

İddiaçı "Gündəlik Bakı" ictimai-siyasi qəzetin ("Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC) apellyasiya şikayəti təmin edilməsin.

Apellyasiya şikayəti üzrə ödənilmiş 26 manat məbləğində dövlət rüsumu iddiaçı "Gündəlik Bakı" ictimai-siyasi qəzetin ("Gündəlik Bakı Qəzeti Redaksiyası" MMC) özünə aid edilsin.

Qətnamədən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati - iqtisadi kollegiyasına kassasiya şikayəti verilə bilər.